Xalq qəzeti.- 2023.- 5 may.- S. 11

*Heydər Əliyev – 100*

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM), Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti (DDPU) və "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə bu ali təhsil ocağında Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Heydər Əliyev – Azərbaycan və Özbəkistan arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin banisi" adlı beynəlxalq konfrans keçirilib.**

# Ulu öndər özbək xalqının unudulmaz dostudur



Konfrans iştirakçıları əvvəl ulu öndərin Mədəniyyət Mərkəzinin qarşısındakı abidəsinin önünə gül qoyublar. Sonra Heydər Əliyevə həsr olunan foto və nəşr sərgisi ilə tanış olublar.

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru, professor Abduqaffor Qırğızbayev Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən söz açıb. Onun təkcə Azərbaycanda deyil, Özbəkistanda da çox böyük və dəyərli şəxsiyyət olduğunu bildirib.

AMM-nin direktoru Samir Abbasov ulu öndərin rəhbərliyi dövründə xalqımızın maraqlarını və gələcəyini düşünməsini, Türk dünyası ilə bağlı fikirlərini, Özbəkistanla əlaqələrin və əməkdaşlığın qurulmasında və inkişafında xidmətlərini qeyd edib.

Özbəkistan Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsi sədrinin müavini Zafarbek Axmedov, Mirzə Uluqbek adına Özbəkistan Milli Universitetinin professoru, fəlsəfə elmləri doktoru Cəmilə Şermuhamedova Azərbaycanla münasibətlərin daim Özbəkistan üçün prioritet olduğunu, Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulan münasibətlərimizin bu gün onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar.

Azərbaycan Milli Məclisinin deputatı, akademik Nizami Cəfərov, Özbəkistan Ali Məclisinin deputatı Gülbahor Səidqəniyeva Heydər Əliyevin ictimai-siyasi fəaliyyətindən, iki qardaş respublika arasında həm sovet dövründə, həm də müstəqillik illərində münasibətlərin qurulması və inkişafındakı rolundan söz açıblar.

Bakı Dövlət Universitetinin Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri, dosent Kərəm Məmmədov, Nizami adına DDPU-nun professoru, tarix elmləri doktoru Abrar Həzrətqulov və tərcüməçi alim Babaxan Şərif Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində, ictimai-siyasi həyatında, daxili-xarici siyasətində, mədəniyyətində, elmində, dövlətlərimiz arasındakı münasibətlərdə müstəsna xidmətlərinə dair məruzələr ediblər.

Konfransın aktiv təşkilatçıları və iştirakçılarına Özbəkistan Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsinin və "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin Fəxri diplomları təqdim edilib.

Tədbirdə universitetin "Altın miras" ansamblının üzvləri özbək və Azərbaycan musiqilərini ifa ediblər.

Azərbaycanın və Özbəkistanın xalq artisti Gülyanaq Məmmədova Azərbaycan və özbək mahnılarını səsləndirib.

***Qulu KƏNGƏRLİ***

**Daşkənd**